# BOSNİYA VƏ HERSEQOVİNA

*Tarixi və təbii dəyərlərini qoruyub saxlayan heyrətamiz ölkə Bosniya və Herseqovina Balkan yarımadasının qərbində yerləşən kiçik Avropa dövlətidir. Pravoslav və katolik mədəniyyətlərinin kəsişməsi olan bu ölkə şərqdə Serbiya, cənub-şərqdə Monteneqro, şimalda və cənub-qərbdə Xorvatiya ilə həmsərhəddir. Adriatik dənizinə çıxışı olan ölkənin paytaxtı və ən böyük şəhəri Sarayevodur. 1991-1992-ci il hərbi hadisələrindən əvvəl Yuqoslaviyanın tərkibində olan ölkənin sahəsi 51,1 min kvadratkilometrdir. Ərazi quruluşu baxımından konfederativ ölkədə üç etnik qrup mövcuddur: boşnaklar, serblər və xorvatlar. Arasındakı əsas fərq dinlə bağlıdır - bosniyalılar islamı, serblər - pravoslav xristianlığı qəbul edirlər, xorvatlar isə daha çox katolikdir. Serblər əsasən şimal-şərq bölgələrində, xorvatlar - cənub, qərb və şimal-qərb bölgələrində, boşnakların əksəriyyəti isə ölkənin mərkəzində yaşayır. Şərqin çıxış, Qərbin isə giriş qapısı sayılan Bosniya və Herseqovinada yaşayan əhali slavyan dillərinə yaxın olan dildə danışsalar da, etiqad baxımından əksəriyyəti islama tapınır. Müsəlmanlar 51, pravoslavlar 30, katolik və protestantlar 19 faiz təşkil edirlər. Xorvatlar və boşnaklar latın əlifbasından istifadə edir, Serbiya ərazisində isə kiril əlifbası qəbul edilir. Eyni zamanda, Bosniya və Herseqovina Federasiyasının ərazisində otuza qədər dialekt variantından istifadə olunur ki, bu da yazılı şəkildə öz əksini tapır. İngilis dilindən yalnız böyük şəhər və əyalətlərdə istifadə edilə bilər.*








Yüksəkkeyfiyyətli kömür, dəmir filizi və daş duzu zəngin yataqlarının olması Bosniya və Herseqovina ərazisində müxtəlif sənaye sahələrini inkişaf etdirməyə imkan verib. Xüsusilə, bunlar kimya, elektrik, ağac emalı və metallurgiya sənayeləridir.

Ölkənin təxminən 90 faizini Dinar dağları və şimal-qərbdən cənub-şərqə qədər uzanan alçaq dağ silsilələri əhatə edir. Ən yüksək zirvəsi Maqlikdir (2386 metr). Düzənliklər şimalda (Sava düzü) və cənubda Adriatik sahillərində yerləşir. Ölkədə mövcud olan çayların ümumi uzunluğu 2000 kilometrdir. Dunay hövzəsinə aid olan ən böyük çay Savadır. Onun qolları Una, Sana, Vrba, Bosna və Drinadır. Digər əhəmiyyətli su arteriyası Neretvadır. Dağlıq relyef bir çox göllərin yaranmasına da səbəb olub. Gözəlliyi ilə məşhur və buzlaq mənşəli ən əhəmiyyətli göl Boraçko Belyashnitsa, Pren, Visochitsa zirvələri arasında yerləşir.

Avropanın ən etnik heterogen ölkələrindən biri olan Bosniya və Herseqovinanın adət-ənənələri tədqiqatçılar və səyyahlar üçün hər zaman xüsusi maraq doğurub. Düzgün, səmimi və fikirlərini açıq şəkildə söyləyən bosniyalılar öz mehribanlığı və qonaqpərvərliyi ilə seçilir. Asudə vaxtlarını yaxın dostları və qohumları ilə keçirməyi sevən bosniyalının evinə qonaq gəldikdə süfrəyə üç dəfə qəhvə verilir: "xoş gəldin qəhvəsi", "söhbət qəhvəsi" və "vida qəhvəsi". Qonaq evdən bayıra çıxanda ev sahibi qapını bağlamadan bir müddət gözləyir. Ayrılan qonağın dərhal arxasından bağlanan qapı onun səfərinin arzuolunmaz olduğunu göstərə bilər. Ünsiyyətcil bosniyalılar ictimai nəqliyyatda asanlıqla söhbət edir, ölkəyə gələn turistlərə öz köməyini əsirgəmirlər. Çox güclü ailə və dostluq əlaqələri quran bosniyalılar böyüklərə qarşı hörmətlə yanaşır, qonşuları və dostları ilə mehriban münasibət saxlayırlar. Bu ölkənin insanları heç vaxt tələsmir.

Bu bölgənin çoxəsrlik, milli ənənələrinə əsaslanan Bosniya və Herseqovina sənətkarlığı 1995-ci ildə Bosniya münaqişəsi başa çatdıqdan sonra kifayət qədər sürətlə inkişaf etmişdir. Şanlı, müzəffər tarixini, ədəbi və mənəvi abidələrini, tarixdə yaşadığı acıları və faciələri unutmayan bosniyalılar xorvatların və serblərin milli adət-ənənələrini bu günə kimi qoruyub saxlamışdır. Zəngin mədəni irsə malik Bosniya və Herseqovinada musiqi çox önəmli yeri tutur. Əsrlərdən bəri burada epik hekayələr mahnı vasitəsilə ötürülüb.

Ticarət yollarının kəsişməsində yerləşdiyinə görə, Bosniya və Herseqovinanın milli mətbəxi Cənubi Slavyan, Türk və Aralıq dənizi mətbəxi kimi zəngindir. Bir qayda olaraq, müxtəlif ət, dəniz və çay balıqları və çoxlu sayda tərəvəz kimi üç əsas komponentdən istifadə olunur. Milli mətbəxin ən məşhur yeməkləri isə "bosanski-lonas", "japrak", "xadjiyski çevap" və s. ət məhsullarından hazırlanan qidalardır.

Azərbaycanla hər zaman dostluq münasibətində olan Bosniya və Herseqovina ölkəmizin müstəqilliyini 1995-ci il fevral ayının 9-da tanımış və elə həmin gün də diplomatik münasibətlər qurulmuşdur. Hələ 1972-ci ilin oktyabrında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Bakı və Sarayevo arasında qardaşlaşmış şəhər münasibətləri qurulmuş, Azərbaycanın Sarayevo şəhərində diplomatik nümayəndəliyi 2011-ci il martın 1-də təsis olunmuşdur.

Bosniya və Herseqovina IX Qlobal Bakı Forumunda, Cənub Qaz Dəhlizi Məşvərət Şurası toplantılarında, eləcə də Azərbaycanın təşəbbüsü ilə keçirilən mötəbər tədbirlərdə də daim yüksək səviyyədə təmsil olunur.

Ölkələrimiz arasındakı münasibətlərin tarixində ilk dəfə olaraq Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Bakir İzetbeqoviçin 2012-ci il oktyabrın 18-də Azərbaycana rəsmi səfəri zamanı Prezident İlham Əliyevlə görüşü baş tutmuşdur. Tarixi səfər çərçivəsində imzalanan mühüm sənədlər iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsinə xidmət edir. Həmin səfər zamanı cənab İlham Əliyev demişdir: "Bu, bizim münasibətlərimizin tarixində ilk yüksək səviyyəli səfərdir. Əlaqələrimizin böyük potensialı, böyük gələcəyi vardır. Ümid edirəm ki, səfər ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olacaqdır. Həmçinin əməkdaşlığımızın tarixi kökləri vardır. Qırx il əvvəl Sarayevo ilə Bakı arasında saziş imzalandı və onlar qardaşlaşmış şəhərlər oldu. Düşünürəm ki, biz hazırda bu tarixi əlaqələri bərpa edirik. Əlbəttə ki, yeni mərhələdə - iki müstəqil dövlət səviyyəsində".

Daha sonra 10-12 mart 2016-cı il, 16-18 mart 2017-ci il, 15-17 mart 2018-ci il, 14-16 mart 2019-cu il tarixlərində Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Mladen İvaniç də Azərbaycana işgüzar səfərlər etmişdir. 25-26 oktyabr 2019-cu ildə isə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Milorad Dodik Azərbaycanda işgüzar səfərdə olmuşdur.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri xanım Jelka Tsviyanoviç 2023-cü il 28 fevral-1 mart tarixində Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə səfərdə olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşən Jelka Tsviyanoviç iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etmişdir. Həmçinin xanım J.Tsviyanoviç COVID-19 dövründə və Bosniya və Herseqovinada baş vermiş daşqınlar zamanı Azərbaycanın onun ölkəsinə göstərdiyi dəstəyi yüksək qiymətləndirmişdir. İki ölkə arasında iqtisadi-ticari əlaqələrin daha da gücləndirilməsinin, biznes dairələri arasında birbaşa təmasların təşviqinin vacibliyini vurğulayan qonaq iqtisadiyyat, ticarət, investisiya və enerji sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğulamışdır. Görüş zamanı Jelka Tsviyanoviç ölkə başçımız İlham Əliyevi ölkəsinə rəsmi səfərə dəvət etmişdir.

2023-cü il aprelin 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda səfərdə olan Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Görüşdə ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu və bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

Mədəni əlaqələrə gəlincə, vurğulamaq yerinə düşərdi ki, Sarayevo Milli Kitabxanası və Universitet Kitabxanasında dahi Azərbaycan klassiklərinin, o cümlədən Nizami Gəncəvinin və Məhəmməd Füzulinin əsərlərinin əlyazmaları saxlanılır.

Humanitar əlaqələr sahəsində 2013-cü il iyunun 8-də Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda kor və zəif görən uşaqlar və gənclər mərkəzində Heydər Əliyev Fondu tərəfindən yenidənqurma işləri aparılmışdır. Mərkəzin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak etmişdir. Həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə Sarayevoda park və körpü salınmış, Xocalı və Serebrenitsa soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılmışdır.

Vətən müharibəsi zamanı Bosniya və Herseqovinanın yüksək səviyyəli nümayəndələri bəyanatlarla çıxış edərək Azərbaycana dəstəyini əsirgəməmişdir.

Biz əminik ki, atılan bütün addımlar ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə xidmət edəcəkdir.

**Arzu ASİFQIZI,**
**"Respublika".**